## Təlimatlar

- Planetarium Günbəzinin girişində sizə aşağıdakı əşyalar təqdim edildi:
  1. Üzərində B işarəsi olan zərf.
  2. Bir saniyəölçən olan kisə, baş fənərinə və yaşıl qələmə sahib olan çanta.
  3. Yazı lövhəsi
- Zərfin üzərində çap olunmuş İştirakçı Kodunu yoxlayın B.
- Suallar Kitabı, iki Səma Xəritəsi və Xülasə Cavab Vərəqləri kiçik zərfin içində saxlanılır S. **Bu zərfi (S) yalnız imtahanın başlanğıcını bildirən fit çalındıqda açmağa icazə verilir.** İmtahan vaxtı (1 saat) bu andan başlayır.
- Bu imtahanda iki sual var: OP01 və OP02. Suallar kitabını oxumaq və müşahidə üçün ilkin planlar hazırlamaq üçün **15 dəqiqə** vaxtınız olacaq. Bu müddət ərzində planetarium günbəzində işıqlar yanacaq.
- İşıqlar sönəndə, digər iştirakçılara mane olmamaq üçün baş fənərinin işığını mümkün qədər zəif tənzimləyin.
- OP01 sualı üçün vaxt **15 dəqiqə**:
  - Qaranlığa uyğunlaşma və səma ilə tanışlıq: 3 dəqiqə
  - Əsas tapşırıq: 12 dəqiqə
- OP02 sualı üçün vaxt **10 dəqiqə**.
- Hər sualın başlanğıcında və sonunda fit çalınacaq.
- Suallar arasında **2 dəqiqə** fasilə olacaq.
- Hər sual üçün qalan vaxt günbəz üzərində bir dəqiqəlik intervallarla göstəriləcək. Diqqət yetirin.
- Proyeksiyanın sonunda işıqlar yenidən yanacaq və cavablarınızı tamamlamaq üçün **18 dəqiqə** vaxtınız olacaq.
- Bir şeyi işarələmək və ya çəkmək üçün qələm istifadə etsəniz, təqdim etməzdən əvvəl yazını daha anlaşılır etmək üçün üçün yaşıl qələm (çantanızda verilmiş) ilə üzərindən keçin.
- İmtahan zamanı istənilən vaxt yerinizdə ayağa qalxa və ya dönə bilərsiniz. Lakin, yerinizdən kənara çıxmağa icazə verilmir.
- İmtahan boyunca ciddi sükut saxlamalısınız.
- İmtahan aşağıdakı kimidir:

| | | |
|---|---|---|
| **İşıqlar YANDI** | 15 dəq | Sualların oxunması və müşahidə planlaşdırılması |
| **İşıqlar SÖNDÜ:** | 27 dəq 20 san | Günbəz üzərində proyeksiya |
| **Zaman (dəq:san)** | **Müddət** | **Proyeksiya** |
| 00:00 – 00:10 | 10 san | Günbəz üzərində OP01 sualının etiketi |
| 00:10 – 15:10 | 15 dəq | OP01 sualı üçün proyeksiya |
| 15:10 – 17:10 | 2 dəq | Fasilə |
| 17:10 – 17:20 | 10 san | Günbəz üzərində OP02 sualının etiketi |
| 17:20 – 27:20 | 10 dəq | OP02 sualı üçün proyeksiya |
| **İşıqlar YANDI** | 18 dəq | Hesablama və yekunlaşdırma |

- **İmtahanın sonunda**:
    - Bütün istifadə olunmuş vərəqlərdə İştirakçı Kodunuzu və səhifə nömrələrini düzgün yazdığınızı yoxlayın.
    - Vərəqlərinizi aşağıdakı qaydada düzün:
      Cavab Vərəqi (OP01), göy xəritəsi Xəritə-OP01, (OP01) üçün istifadə olunmuş İş Vərəqi(lər)i, Cavab Vərəqi (OP02), səma xəritəsi Xəritə-OP02, (OP02) üçün istifadə olunmuş İş Vərəqi(lər)i.
    - Yuxarıda göstərilən vərəqləri kiçik zərfin içinə qoyun **S**. Hər iki İstifadə olunub-olunmamasından asılı olmayaraq Cavab Vərəqi **S** zərfinin içində olmalıdır.
    - **Yalnız kiçik S zərfinin içindəki məzmunu qiymətləndiriləcək. Bu zərfin içində olmayan heç bir vərəq qiymətləndirilməyəcək.**
    - Kiçik **S** zərfini böyük **B** zərfinin içinə qoyun.
    - Bütün digər vərəqlər, yəni, Təlimat Vərəqi(lər)i, Suallar Kitabı(lar)i, Məlumat Vərəqi(lər)i və istifadə olunmamış İş Vərəqi(lər)i birbaşa böyük zərfin içinə qoyulmalıdır **B**.
    - Zərfin üzərindəki ip bağını bağlayın **B**.
    - Baş fənərini, saniyəölçəni və yaşıl qələmi çantanın içinə qoyun.
    - Zərfi **B**, yazı lövhəsini və çantanı çıxışa aparın və təyin olunmuş qutulara atın.